Prezidentin izi ilə

# Qalib xalqın övladı kimi Xocalıya qayıdırıq








**(əvvəli ötən sayımızda)**

Hətta Rusiyada nəşr edilən "Krasnaya zvezda" hərbi qəzeti 1992-ci il martın 11-də dərc olunan sayında 366-cı alayın ermənilərin tərəfində azərbaycanlılara qarşı soyqırımında iştirakını etiraf etmişdi. Fransız jurnalist Jan İv Yunet yazıb ki, bura gələnə kimi respublika haqqında az məlumatım var idi. Fransanın televiziya və qəzetlərində azərbaycanlılar müdaxiləçi, erməniləri doğma yerlərindən qovmağa çalışanlar kimi göstərilirdi. Biz Xocalı faciəsinin şahidi olduq, yüzlərlə mülki insanın cəsədlərini gördük. Onların içərisində qadınlar, uşaqlar, qocalar və Xocalının müdafiəçiləri də var idi. Mən müharibə, alman faşistlərinin amansızlığı haqqında çox eşitmişdim, lakin ermənilər 5-6 yaşındakı uşaqları, mülki insanları öldürərək onları arxada qoydular.

Bu qanlı faciə zamanı qızı Mehriban və üç nəvəsi itkin düşən şəxslərdən biri də Xocalı sakini **Allahverdi Hüseynovdur.** O deyir ki, əsir götürülən qızı və nəvələrini ermənilər geri qaytarmayıblar və bu günə kimi onlardan xəbər yoxdur. Bizə dedilər ki, qızım Martuni rayonundadır, bunu Sevan adlı erməni də təsdiq etdi. Ermənilər dedilər ki, sizdə əsirlikdə olan üç ermənini gətirin, qızını və nəvələrini dəyişək. Biz Bayılda həbsxanada saxlanılan üç ermənini Ağdamdakı qərargaha gətirdik. Həmin gün xəbər tutduq ki, xocalılıların xilaskarı Allahverdi Bağırov Naxçıvanik kəndi ətrafında minaya düşərək şəhid olub. Allahverdinin cəsarəti və əlaqələri sayəsində yüzlərlə xocalılı əsirlikdən azad olundu. Ermənilər əsasən qocaları, işləyə bilməyənləri dəyişirdilər. Amma cavanları buraxmırdılar. Onda qızım Mehribanın 25 yaşı var idi, üç nəvəm də anası ilə birlikdə idi. O gündən bu günə kimi qızımdan və nəvələrimdən heç bir xəbər yoxdur.

Ağdamın Zəngişalı kənd sakini, keçmiş döyüşçü **Saleh Cabbarov** şahidi olduğu dəhşətli hadisələri xatırlayır: - Faciədən dərhal sonra xocalılılara kömək etmək üçün Əsgəran istiqamətinə yollandıq. Fevralın 26-sı səhər Qaraqaya yüksəkliyinə çatanda artıq Ağdamdakı "Qarabağ şahinləri" taborunun könüllüləri döyüşərək buradakı erməni postunu ələ keçirmişdilər. Əgər həmin post ermənilərdən azad edilməsəydi, çox güman ki, Xocalıdan salamat adam çıxmazdı. Qaraqaya yaxınlığında ermənilər tərəfindən qətlə yetirilmiş dinc sakinlərin cəsədlərini gördük. Onlar Xocalıdan Ağdama qaçarkən ermənilər tərəfindən vəhşiliklə qətlə yetirilmişdilər. Könüllü döyüşçülər, eləcə də mülki vətəndaşlar cəsədləri Ağdama daşıyırdılar. Biz Xocalıya doğru irəlilədikcə hər tərəfdə ermənilərin vəhşiliklərinin şahidi olurduq. Qadınlar, qocalar, körpə uşaqlar ağlasığmaz qəddarlıqla öldürülmüşdülər.



Xocalıda doğulub boya-başa çatmış **Məmməd Nağıyev** respublikanın Əməkdar həkimidir, "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb. Xocalının ən ağır günlərində həmyerlilərini tək qoymayıb, xəstələrə, yaralılara kömək göstərib, amansız faciə törədiləndə Xocalıda olub. Ermənilər tərəfindən əsir götürülüb, ağır işgəncələrə məruz qalıb, gözlərinin qarşısında dinc insanlar qətlə yetirilib. Həmin günləri xatırlamaq onun üçün çox ağırdır, o illərə qayıdanda, göz yaşları səssiz axır, danışdıqca həm qəzəblənir, həm də kövrəlir: - 1979-cu ildə Azərbaycan Tibb Universitetini bitirib, təyinatla Xankəndiyə işləməyə gəlmişəm. Həmin vaxtdan da ermənilərin azərbaycanlılara qarşı nifrətini, qəddarlıqlarını görmüşəm. Azərbaycanlı həkimlərdən Respublika Səhiyyə Nazirliyinə şikayət yazırdılar ki, ermənilər türklərlə bir yerdə işləmək istəmirlər. Təəssüf ki, onların sözləri eşidilirdi. Bakıda indi cinayətkarlar kürsüsündə oturan, keçmiş Dağlıq Qarabağın tanınmamış birinci prezidenti Arkadi Quqasyanla həvəskar sürücülük kursunda bir yerdə oxumuşam. Türk düşməni idi. Atası o vaxt vilayət xəstəxanasının baş həkimi işləyirdi, Arşavir Quqasyan ixtisasca cərrah idi. O, ermənilərə deyirmiş ki, biləndən, qəsddən kifayət qədər azərbaycanlı xəstəni öldürməklə öz vəzifə borcumu yerinə yetirmişəm. Humanist bir peşənin yiyəsi günahsız insanları bilə-bilə öldürüb. Xocalı 89-cu ildən mühasirə şəraitində idi, 90-cı ildən yollar da bağlanmışdı. Demək olar ki, Xocalının heç bir yerlə əlaqəsi yox idi. Heç nə çatışmırdı. Qaz, su, işıq yox idi. Hər şey kəsilmişdi. Belə bir vəziyyətdə yaşayırdıq. Şəxsən mən inana bilmirdim ki, Xocalı kimi strateji bir yeri ermənlərə təhvil verə bilərlər. Ailəm, atam, anam da buradaydı. Mən onları qoymurdum çıxmağa, ümid edirdim ki, bizə kömək gələcək. Axırıncı helikopter fevral ayının 13-də Xocalıdan çıxanda atam israr etdi ki, ailəni, ananı yola sal. Atam, iki qardaşım mənimlə qaldı. İki tibb bacısı və mən camaata və özünümüdafiə batalyonuna xidmət edirdik. Qeyd edim ki, Xocalı üç böyük kənddən ibarətdi və ona görə də xəstələrin hayına çatmaq üçün saatlarla vaxt sərf edirdik.

Faciə gecəsi mən buradaydım. Amma axırıncı 10 gün idi ki, öz evimizdə qalmırdım. Yaralılarımız var idi. Onların çoxuna ancaq evlərində xidmət edirdim. Xocalıya köməyə gəlmiş 20 nəfərlik bir dəstə var idi. Onların komandiri Aqil Quliyev çox cəsur, igid bir oğlanıydı. Həlak olandan sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Amma mən deyərdim ki, 20 nəfərin hər biri qəhrəman adına layiq idi. Aqil ilə onun bir döyüşçüsü Cabbar da yaralanmışdı. Özümü çatdıranda Aqili bir tərəfdə, Cabbarı isə qarşı tərəfdə uzandırmışdı. Mən komandirə tərəf getmək istəyəndə Aqil dedi ki, həkim, birinci əsgərə yardım göstər. Cabbara tərəf gedəndə o az qala yalvardı ki, həkim birinci komandirə yardım göstər. İnanın ki, bu igid oğlanların böyük mənəviyyatı qarşısında aciz qaldım. Gecə adamlar dəstə-dəstə hərə bir səmtə üz tutdu. Biz Qarqar çayı keçəndən sonra çox adamın ayaqlarını don vurdu, bir neçə nəfər şaxtanın təsirindən öldü. Min bir müsibətlə Kətik dağına qalxdıq, məlum oldu ki, qarşıda erməni postları var, bizi güllələbaran etdilər. Təzədən dağın ətəyinə qayıtdıq və xeyli gözləyəndən sonra Ağdam tərəfə üz tutduq. Bizim dəstədə təxminən 150 nəfər var idi, atışmada onların çoxu öldürüldü. Bir kəndə yaxınlaşanda bələdçimiz dedi ki, yəqin Ağdamın kəndidir. Biz də oraya yaxınlaşdıq, təxminən bir 200 metrlik məsafə varıydı. Qəflətən bizi atəşə tutdular, istiqaməti səhv salmışdıq, azıb ermənilərin Dəhraz kəndinə getmişdik. Atəş açılanda bir çalaya doluşduq. Bir ana-bala var idi, Qərbi Azərbaycandan Xocalıya gəlmişdilər. Uşağın sol budundan güllə keçmişdi, onu qan aparırdı. Uşağa tərəf süründüm, yarasını sarıdım, uşağı da, anasını da götürüb camaat olan yerə qayıtdım. Ermənilər bizi əsir götürdülər, həmin o yaralı uşağı anasının gözü qarşısında öldürdülər. Bizi bir tövlə kimi yerə saldılar. Təxminən 10-15 dəqiqə keçmişdi, təzədən gəldilər, kimin ağızında qızıl dişləri vardısa, həmin dişləri çəkdilər. Bir saata yaxın vaxt keçəndən sonra ermənilər girdilər içəri, 13 nəfəri seçdilər. Bizi saxladıqları yerdən təxminən 20-25 metr aralıda avtomatdan atəş açdılar. Çöldən maşın səsi gəldi. Bir neçə dəqiqədən sonra maşın getdi. İndiyə qədər də bilinmir ki, onları öldürüb, yoxsa diri apardılar. İşğaldan azad ediləndən sonra tapılan kütləvi məzarlıqdan sümüklər bizimlə əsirlikdə olan üç nəfərə aid idi. Xocalıda 20-21 yaşında mesxeti türkü olan Əhmət adında oğlan var idi. Ermənilər Əhmətin başını kəsdilər, futbol topu kimi oynatmağa başladılar. Silah gücünə onlara baxmağımızı tələb etdilər. Bir neçə aydan sonra çox çətinliklə əsirlikdən azad edildim. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz şəhidlərin qanını yerdə qoymadı, torpaqlarımız düşməndən azad edildi. 2023-cü il sentyabrın 19-da aparılan lokal xarakterli antiteror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa olundu. İşğaldan azad edilmiş torpaqlarımız xalqımızın Xocalı soyqırımı qurbanlarına vəfa borcudur. Hazırda işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Xocalı şəhərində Prezidentimizin tapşırığı ilə böyük miqyaslı quruculuq-tikinti aparılır. Görülmüş işlər biz xocalılıları ürəkdən sevindirir.



Xocalı sakini, şəhid anası **Elmira Allahverdiyeva** hazırda doğma şəhərdə yaşayır. Keçmiş günləri xatırlamaq onun üçün çox çətindir. Bir gözü ağlasa da bir gözü gülür, çünki dədə-baba torpağına, doğma Xocalıya qayıdıb. Elmira xanım deyir:

- Xocalıda böyümüşəm, burada ailə qurmuşam. 1988-ci ildən ermənilər yolumuzu kəsir, bizi təhqir edir, söyüş söyür, bizi qorxudurdular. Ev tikənlərə deyirdilər ki, evinizi tikin, onsuz da bizə qalacaq. Xocalının kişiləri, cavanları ətraflarda post yaratdılar, növbə ilə keşik çəkirdilər. Xocalı atəşə tutulurdu, güllələr divarlara dəyirdi. Bir gün qızım bulaqdan su gətirəndə ermənilər onu atəşə tutmuşdular, xoşbəxtlikdən güllə dəyməmişdi, ancaq uşaq çox qorxmuşdu. Ona görə də Məmməd həkim məsləhət bildi ki, təcili uşağı buradan uzaqlaşdırın, yoxsa ağır xəstələnər. Həyat yoldaşım 1992-ci il yanvarın 19-da Xocalıya gəlmiş helikopterlə bizi Ucar rayonuna aparıb bir tanışın evində yerləşdirəndən sonra Xocalıya qayıtmışdı. Oğlum Mahir 10-cu sinifdə oxuyurdu, atası onu Xocalıdan çıxara bilmədi. Atası ilə çiyin-çiyinə döyüşürdü. Faciə baş verən gecə həyat yoldaşım Novruzu və Mahiri meşədə görənlər olub. Lakin sonradan onlardan bir xəbər ala bilmədik. Qohum-əqrabadan 14 nəfər bir gecədə həlak oldu. Onlardan on nəfərini dəfn edə bildik, ancaq bu günə kimi 4 nəfərimizdən xəbər yoxdur, ümidimizi kütləvi məzarlıqlardan tapılan sümüklərə bağlamışıq. İki qardaşım, biri 24, o biri 29 yaşında şəhid oldu. Həmin gecə gəlinimiz körpə uşağını kürəyinə bağlayaraq Qarqar çayına tərəf gedirmiş, ermənilər onu sinəsindən vuranda güllə kürəyindəki körpəyə də dəymişdi. Xocalı faciəsi ilə bağlı göstərilən kadrlarda göy gödəkçəli qız uşağı mənim bacım qızıdır, anası ilə birlikdə şəhid oldu. Xocalı azad ediləndə çox sevindim ki, əzizlərimin həlak olduğu torpaqlara qayıdıram. Xocalıya birinci köç ilə gəlmişəm. Cənab Prezident İlham Əliyev evimizin açarlarını təqdim etdi, Allah onu qorusun! Şükür edirik ki, torpaqlarımız azad edildi, Azərbaycanımız toy-bayramlı olsun. Uca Allah şəhidlərimizə rəhmət etsin, hərbçilərimizi qorusun, qazilərimizə sağlamlıq qismət etsin.

## Soyqırımı şahidləri danışır

Həmin o ağır illərdə şayiə gəzirdi ki, guya Xocalıda döyüş olmayıb, könüllü müdafiəçilər şəhəri tərk ediblər. Əlbəttə, bu, ağ yalan idi. Xocalı uğrunda çox gərgin döyüşlər olmuşdu. Azərbaycanın Milli Qəhrəmanları Əlif Hacıyevin komandir olduğu xüsusi təyinatlı milis dəstələri və Aqil Quliyevin köməyə gəlmiş 20 nəfərlik dəstəsi düşmənin böyük bir ordusuna, bədnam 366-cı alayın texnikasına və əsgərlərinə qarşı mərdliklə, böyük hünərlə, qəhrəmanlıqla döyüşmüşdülər. Lakin qüvvələr nisbəti ermənilərin xeyrinə olduğu üçün salamat qalan döyüşçülərimiz əhalinin rayondan təhlükəsiz çıxarılması üçün öz canlarını qurban vermişdilər.

Faciənin baş verdiyi ərazilərə getmək sözün həqiqi mənasında şahidləri sarsıtdı, doğmalarını, əzizlərini itirmiş insanlar həmin o müdhiş gecədə yaşadıqları yerlərə baxmağa ürək eləmirdilər. Sanki o dəhşətli hadisələr dünən baş vermişdi, hamı kövrəlmişdi, bax, filankəsi burada vurdular, o büsbütün məhv edilmiş ailəni burada əsir götürdülər, qadının kürəyindəki körpə uşağa güllə burada dəymişdi. Dəhşət o idi ki, bu insanlar ömrün ahıl yaşında faciəni, soyqırımı sanki yenidən yaşadılar.



Xocalıda axıra qədər döyüşən **Firudin Əliyev** danışır: - Xocalıda camaat çox ağır günlər yaşayırdı. Qaz, işıq, heç nə yox idi. Xocalı ərazi özünümüdafiə batalyonunun tərkibində idim. İki dəfə ağır yaralanmışam. Məmməd həkim mənim yaralarımı sarıyıb, məni ölməyə qoymayıb. Onların mənim boynumda haqları var. Çətin günlər idi, həqiqətən də. Havadan, qurudan yollar bağlı idi. Xocalıda poçtda işləyən Gülşən adlı qadın var idi. Poçta olan generatoru qoşurduq və Bakıya real vəziyyət haqqında məlumat verərək kömək istəyirdik. Vəd versələr də heç bir kömək gəlmirdi. Sonra generatorun yanacağı da qurtardı. Vəziyyət çox ağır idi. Çox təəssüf ki, ovaxtkı, hakimiyyət, o ac bəylər, hansı ki Azərbaycanın sərvətinin üstünə qondular, başladılar onu sümürməyə. Və həmin o ac, quru bəylərin səriştəsizliyi nəticəsində Xocalıya heç bir köməklik olunmadı. Biz məlumat verirdik ki, Əsgəranın ayağı ilə başı bir kilometr yoxdur. Biz Xocalıdan hücum edək, Ağdamdan mühasirə yarılsın. Xocalı müsibətində Ağdam camaatı çox böyük kömək göstərdi. Sağ olsunlar, ağdamlılar olmasaydı, xocalılıların çox hissəsi elə soyuqdan, aclıqdan donub öləcəkdilər. Xocalıdakı insanlar bir nəslin kökləridir. Hamı bir-birinə qohumdur. Dərdimiz də birdir, kədərimizdə, sevincimiz də. Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı tikilir, qurulur, çox şükür ki, öz evimdəyəm. Bizə bu sevinci, bu əvəzi olmayan xoşbəxtliyi bəxş edən cənab İlham Əliyevə, qəhrəman ordumuza minnətdarıq. Allah bütün şəhidlərimizə rəhmət etsin, qazilərə cansağlığı arzulayıram. Özüm də Birinci Qarabağ müharibəsi veteranıyam. Hələ də bədənimdə qəlpələr gəzdirirəm. Onlar 1992-ci ildəki Xocalıdan mənə yadigar qalıb.

Başqa bir həmsöhbətimiz Xocalıda doğulub, bu qədim yurdda böyüyən, faciənin şahidlərindən biri **Sərdar Abışov** deyir:



- Xocalıdan çıxanda 22 yaşım var idi. Ailəmiz Xocalıda axıra qədər qaldı. Fevralın 25-dən 26-na keçən gecə atam, anam, qardaşlarım, hamımız evimizdə olmuşuq. Fevralın 25-də gecə saat 10 tamamda Xocalının dörd tərəfinə hərbi texnika yeridildi. Xankəndidəki bədnam sovetin 366-cı alayın tankları idi. Həmin vaxt mən 11-ci posta idim. Gecə yarısı gördük ki, ermənilər rusların köməyi ilə Xocalını başqa bir istiqamətdən oda qaladılar, evləri yandırdılar. Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin dəstəsi aeroport tərəfdə döyüşürdü. Xocalının əli tüfəng tuta bilən adamları rəhmətlik Tofiq Hüseynovun batalyonunda Xocalını müdafiə edirdilər. Başqa bir tərəfdə isə Aqil Quliyevin dəstəsi döyüşürdü. Təxminən min nəfərdən çox erməni-rus əsgərlərinə və hərbi texnikaya qarşı 200 nəfərə yaxın əli avtomatlı Xocalı müdafiəçiləri vuruşurdular. Ancaq mən çox nigaran idim, çünki valideynlərim, qohum-əqrəba hamısı evdə idi. Şiddətli döyüş gedirdi. Ermənilər ruslarla birlikdə ağır hərbi texnikalarla Xocalıya hücum etmişdilər. Rus əsgər və zabitləri Xocalıya divan tutdular. Nənəmi, anamı, balaca qardaşımı 5 mərtəbə deyilən yerə gətirdim. Bir sutka yarım zirzəmidə qaldılar, getmək istəmədilər, dedilər ki, ölsək də öz torpağımızda ölək. Oradan çıxıb Qarqar çaya tərəf getdik. Qohumlarımın çoxu burada həlak oldu, qardaşım Ərşadı isə əsir götürdülər. Sonra atamla balaca qardaşım gedib nənəmi gətirdilər. Nənəm meşədə qaldı. Hər yeri tanıyırdım, haradan getmək lazımdır bilirdim. Biz Naxçıvanlı tərəfdən üzümlüyün içi ilə Ağdama tərəf gedirdik. Ermənilər duyuq düşən kimi hər tərəfdən bizi atəşə tutdular. Xeyli adam öldürüldü, əmimi və ailəsini əsir götürdülər. Ondan sonra Cəfərov Anarı da ermənilər tutdular, indiyə qədər ondan bir xəbər yoxdur. Çox çətinliklə həmin yerdən uzaqlaşa bildik. Anam, atam, iki qardaşım, Müşfiq Sadıqov, Emin Əzizov, Zabil Əbdülov ailəsi ilə, bir də kirvəmiz İsaq Ağayarov. Xankəndidəki bədnam alayda xidmət edən 4 nəfər özbək əsgər hadisədən bir qədər əvvəl qaçıb Xocalıya gəlmişdilər. Xankəndidə ermənilər onları incidirmişlər. Biz onları xilas etdik, Ağdama çatdıq. Faciə məni çox sarsıtmışdı, bu illər ərzində nə qədər müraciət olunsa da heç kəsə müsahibə verməmişəm. Demişdim ki, Xocalıya qayıtmayınca müsahibə verməyəcəm. Bu gün bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Başda Prezident, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Ata yurdumda dövlət başçımızla görüşdüm və mənə evin açarlarını təqdim etdi.

Xocalı sakini, vaxtilə təsərrüfatda briqadir, aqronom işləmiş **Sovet Allahverdiyev** ermənilərin dinc insanlara qarşı törətdikləri soyqırımından danışır:



- Hadisədən bir qədər əvvəl ermənilərin atəşi nəticəsində on bir nəfər yaralanmışdıq. Bizi Ağdam xəstəxanasına apardılar, orada eşitdik ki, Xocalıda insanları öldürüb, evləri yandırıb, çox adamı da əsir götürüblər. Dərhal Şelli kəndinə gəldik, hər kəs öz ailəsini, qardaşını, qohumunu axtarırdı. Bizim ailədən heç kəsi tapa bilmədim. Sonra xəbər aldıq ki, anamı, qardaşımı, qardaşımın ailəsini, gəlinimizi, qardaşım Novruzu və oğlu 15 yaşlı Mahiri ermənilər əsir götürüblər. Əsir götürülənlərdən çoxunu öldürüb və Xocalı ərazisində basdırıblar. Xocalı azad ediləndən sonra bura ilk gələnlərdən olmuşam və məni bələdçi kimi gətirdilər ki, şahidlərin göstərdiyi yerləri tapaq. Tapdıq və qazıntı işləri aparıldı, çox təəssüf ki, orada heç nə yox idi. Demək, ermənilər sonralar həmin meyitləri çıxararaq başqa yerə aparıblar. Çox qəddarlıqla bu işi görüblər. Qazıntı zamanı Xocalıda kütləvi məzarlıq aşkar edildi. Az adamın sümükləri tapıldı. Ermənilər bütün əsirləri öldürəndən sonra onları ayrı-ayrı yerdə basdırıblar ki, tapılmasınlar. Onu da deyim ki, bütün öldürülənlərin yerini əsgəranlı Vitali Balasanyan bilir, çünki qətliama o başçılıq edirdi. Xocalı azad edilib, şəhidlərin və soyqırımı qurbanlarının ruhu şaddır. Hazırda Xocalıda 52 ailə yaşayır. Sözə qüvvət üçün deyək ki, həmsöhbət olduğumuz adamlar iş yerlərinin azlığından şikayətləndilər, onlar bütün sahələrdə çalışmağa hazırdırlar.

## Tarixi günlər yaşayırıq

Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan ulu öndər Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdi: "...biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı bu qüdrətə malikdir". Ulu öndərin arzusunu oğlu, Qalib Ali Baş Komandan İlham Əliyevin diplomatiyası və fədakarlığı sayəsində şanlı ordumuz 44 gün davam edən Vətən müharibəsində yerinə yetirdi və işğalçı Ermənistanı ağır məğlubiyyətə uğradaraq təslim etdi. Xocalılıların qisası artıqlaması ilə alındı, düşmən ordusu ağır itkilərə məruz qaldı. Xocalı qatillərinin bir çoxu məhv edildi və bir çoxunun da qolları qandallanıb və Bakı şəhərində məhkəmə qarşısına çıxarılıb. 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən və 2023-cü ilin sentyabr ayında Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Bununla da Qarabağ və Şərqi Zəngəzurdan didərgin salınmış yüz minlərlə insan ən böyük arzularına çatdı. Doğma xalqının və Azərbaycanın şərəfini ucaldan, düyünə salınmış və uzun illər sanki tilsimlənmiş problemi öz əsgəri ilə döyüş meydanında həll edən, ərazi bütövlüyümüzü, suverenliyimizi xilas edən Qalib Ali Baş Komandan İlham Əliyevin siyasi, diplomatik məharəti, fədakarlığı, qətiyyəti sayəsində İkinci Qarabağ müharibəsində əldə edilən əzəmətli və şanlı qələbə indiki və gələcək nəsillər üçün əsl qürur mənbəyidir. Bu qələbə Azərbaycana faciə və fəlakətlər gətirən iki yüz illik erməni-daşnak təcavüzünə, qəddar işğala, ermənipərəst qüvvələrin siyasi təxribatlarına birdəfəlik son qoydu. Prezident İlham Əliyev torpaqlarımızda yaşı iki yüz ildən də çox olan separatizm yuvasına, ermənilərin əsassız torpaq iddialarına son qoydu, bu tarixi missiyanı şərəflə yerinə yetirdi. 2020-ci il noyabr ayının 23-də bir güllə atılmadan işğaldan azad edilən Ağdama səfəri zamanı düşmənin törətdiyi xarabalıqlar içərisində nisbətən salamat qalan məscidə Məkkədən gətirdiyi Quranı hədiyyə edən dövlət başçısının dediyi sözlər iyirmi il ərzində yaşadığı anların, düşüncələrin, həyat fəlsəfəsinin etirafı idi: Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb...

Zaman göstərdi ki, Prezident-xalq birliyi sözdə deyil, əməldədir, işdədir, münasibətlərdə, qarşılıqlı ünsiyyətdədir. Dövlət başçısının öz ad günlərini, bayramları, ölkəmiz üçün əlamətdar günləri xalqla bir yerdə qeyd etməsi, onlara xoş xəbərlər çatdırması yaddaşlara yazılır. Bu inamı onlarda dövlətimizin başçısı yaratmışdı, onlar inanırdılar ki, Azərbaycan bu yaranı mütləq öz köksündən qoparıb atacaq. Keçmiş məcburi köçkünlərin həsrətlə gözlədikləri anlara şahidlik edirik, yurd nisgilli insanlar toy-bayramla, şükranlıqla, sevinc göz yaşları ilə yenidən qurulan şəhərlərə və kəndlərə qayıdırlar.

*(davamı növbəti saylarımızda)*

**Salman ALIOĞLU,**
**Mikayıl NƏRİMANOĞLU,**
**Rauf İBRAHİMOV (foto),**
**"Respublika".**

**Bakı-Xocalı-Bakı.**